**AZƏRBAYCAN RESPUBLIKASI**

**NAZIRLƏR KABINETI**

# QƏRAR

**№ 195**

**Bakı şəhəri, 7 dekabr 2011-ci il**

## Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin yaradılması haqqında

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 sentyabr tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi haqqında Əsasnamə"nin 12-1-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi yaradılsın.
2. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinə tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin strukturu və ştat sayı barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin tabeliyindəki Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin dövlət büdcəsindən maliyyələşdirilməsi ilə bağlı məsələləri müəyyən olunmuş qaydada həll etsin.
4. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi bu qərardan irəli gələn digər məsələləri həll etsin.
5. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin tabeliyindəki Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyət göstərməsi üçün müvafiq yerin ayrılması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.
6. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**